AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

RİYAZİYYAT VƏ MEXANİKA İNSTİTUTU

Əlyazması hüququnda

TELMAN BENSER oğlu QASIMOV

KƏSİLƏN DİFERENSİAL OPERATORLARIN SPEKTRAL XASSƏLƏRİNİN TƏDQİQİ

1202.01 –Analiz və funksional analiz

Riyaziyyat üzrə elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

A V T O R E F E R A T I

Bakı – 2018

Dissertasiya işi **AMEA Riyaziyyat və Mexanika İnstitutunun “Qeyri-harmonik analiz”** şöbəsində yerinə yetirilmişdir.

Elmi məsləhətçi: AMEA-nın müxbir üzvü, prof. **Bilal Bilalov**

Rəsmi opponentlər:

- fizika-riyaziyyat elmləri doktoru, prof. **Sabir Mirzəyev** (Bakı Dövlət Universiteti);
- fizika-riyaziyyat elmləri doktoru, prof. **Aqil Xanməmmədov** (AMEA Riyaziyyat və Mexanika İnstitutu);
- fizika-riyaziyyat elmləri doktoru, prof. **Rauf Əmirov** (Cümhuriyyət Universiteti, Türkiyə).

Aparıcı təşkilat:
Azərbaycan Dövlət Pedoqoji Universitetinin “Riyazi analiz” kafedrası**.**

Dissertasiyanın müdafiəsi 01 iyun 2018-ci il saat 14^{00}-da Azərbaycan MEA Riyaziyyat və Mexanika İnstitutunun nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.111 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyası Riyaziyyat və Mexanika İnstitutunun kitabxanasında tanış olmaq olar.

Ünvan: AZ 1141, Bakı şəhəri, B.Vahabzadə küç. 9.

Avtoreferat 25 aprel 2018-ci il tarixində buraxılıb.

D.01.111 Dissertasiya Şurasının
elmi katibi **dos. Tamilla Həsənova**

İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

Mövzunun aktuallığı. Müasir riyaziyyatın, mexanikanın və fizikanın bir çox məsələləri müəyyən fiziki prosesləri təsvir edən xüsusi törəməli diferensial operatorların həlli üçün yeni yanaşmalar tələb edir. Əksər hallarda dəyişənlərinə ayırma üsulundan istifadə olunur. Xüsusi törəməli diferensial tənliklərin Furye üsulu ilə həlli uyğun diferensial operatorların spektral xassələrinin öyrənilməsinə gətirir.Bu məsələ adi diferensial operatorların məxsusi və qoşulmuş funksiyalar sisteminin müxtəlif funksional fəzalarda tamlıq, minimallıq və bazislik xassələrini özündə ehtiva edir. Son zamanlar yuxarıda göstərilən xassələrlə yanaşı diferensial operatorların məxsusi və qoşulmuş funksiyalarından ibarət sistemlərin freymlik və onun xüsusi halı olan atomar ayrılış xassələrini tək C, L_p, W_p^n kimi klassik funksional fəzalarda deyil, habelə $L_{p(x)}$, $W_{p(x)}^n$, $M^{p,\alpha}$ kimi klassik olmayan funksional fəzalarda da öyrənməyə başlamışlar. Hal hazırda C.fon Neymanın, D.Hilbertin, E.Şmidtin işləri sayəsində öz-özünə qoşma diferensial operatorların spektral nəzəriyyəsi daha çox inkişaf etmişdir. Bu istiqamətdə E.Titçmarş, B.M.Levitan, M.A.Naymark, M.Q.Kreyn, İ.M.Qlazman, A.Q.Kostyuçenko, Yu.M.Berezanski tərəfindən fundamental nəticələr alınmışdır. Eyni zamanda öz-özünə qoşma olmayan diferensial operatorların spektral nəzəriyyəsi də inkişaf etdirilir. Dissertasiya işinin mövzusu ilə bilavasitə əlaqəsi olan bəzi müəlliflərin işləri üzərində ətraflı dayanaq. Aşağıdakı

$$p_0(x)y^{(n)} + p_1(x)y^{(n-1)} + ... + p_n(x)y = \lambda y \qquad (1)$$

adi diferensial tənliyin və xətti asılı olmayan

$$U_\nu(y) = \sum_{j=0}^{n-1} \alpha_{\nu j} y^{(j)}(0) + \beta_{\nu j} y^{(j)}(1) = 0, \ \nu = \overline{1,n}, (2)$$

sərhəd şərtlərinin doğurduğu sərhəd məsələsinə baxaq. Öz-özünə qoşma olmayan diferensial operatorların spektral nəzəriyyəsinin inkişafı A.Puankarenin, G.Birkhofun, R.Langerin, Ya.Tamarkinin, K.Uaylderin və b. işlərindən başlamışdır.

(1),(2) requlyar məsələsinin məxsusi və qoşma funksiyalar sistemininbazisliyi, Riss bazisliyi, mötərizəli Riss bazisliyi, habelə requlyar olmayan məsələnin məxsusi və qoşma funksiyaları üzrə spektral ayrılışların yığılması məsələləri V.P.Mixaylovun, G.M.Keselmanın, N.Danfordun, C.T.Şvarsın, A.A.Şkalikovun, R.Törnerin, G.Benzinqerin, L.Uordun, M.Stounun, V.Eberqardın, E.Koddinqtonun, A.N.Krollun, A.P.Xromovun, C.Fraylinqin və digər müəlliflərin işlərində öyrənilmişdir.

Öz-özünə qoşma olmayan diferensial operatorların məxsusi və qoşma vektorlar sisteminin tədqiqi üçün digər bir yanaşma V.A.İlin tərəfindən təklif olunmuşdur. Bu istiqamət Y.İ.Moiseyevin, V.D.Budayevin, N.B.Kərimovun, V.M.Qurbanovun, İ.S.Lomovun, L.Kritskovun və digərlərinin işlərində inkişaf etdirilmişdir.

Y.D.Tamarkinin və M.V.Keldışın işlərində alınmış nəticələr adi diferensial operatorlar dəstəsinin spektral xassələrinin tədqiqində təməl rolunu oynamışdır. M.V.Keldış ilk dəfə olaraq görmüşdür ki, xüsusi törəməli diferensial tənliklər üçün Koşi məsələsinin Furye metodu ilə həllini əsaslandırmaq üçün təbii olaraq n-qat tamlıq məsələsi meydana gəlir və elə onun tərəfindən abstrakt operatorlar dəstəsi üçün belə teorem isbat olunmuşdur. Operatorlar dəstəsi üçün n-qat tamlıq və n-qat ayrılışların yığılması həmçinin C.E.Allahverdiyevin, M.G.Qasımovun, A.Q.Kostyuçenkonun, A.S.Markusun, V.İ.Matsayevin, F.Q.Maksudovun, M.Q.Cavadovun, R.Cabarzadənin, A.O.Kravitskinin, M.B.Orazovun, A.A.Şkalikovun, S.Y.Yakubovun, S.S.Mirzəyevin, G.V.Radziyevskinin, Ə.M.Əhmədovun və digərlərinin işlərində öyrənilmişdir.

Sərhəd şərtlərinə spektral parametr daxil olan məsələlərin spektral xassələri J.Uolterin, Ç.T.Fultonun, A.Şnayderin, Y.M.Rusakovskinin, D.Hintonun, A.Diksmanın, P.Baydinqin, P.C.Braunun,B.A.Vatsonun işlərində öyrənilmişdir. A.A.Şkalikovun işində sərhəd şərtləri və tənliyin əmsalları spektral parametrdən polinomial asılı oldugu halda (1), (2) spektral məsələlərinin ümumi nəzəriyyəsi qurulmuşdur. Bu işdə requlyar, sanki requlyar və normal məsələlərin sinifləri ayrılmışdır. Xüsusi fəzalar qurulmuşdur ki, burada baxılan məsələlər təbii olaraq xəttiləşdirilir və həmin fəzalarda tamlıq, ayrılış, Riss bazisliyi və mötərizəli Riss bazisliyi haqqında teoremlər isbat edilmişdir. Y.İ.Moiseyev və N.Y.Kapustinin işində sərhəd şərtinə spektral parametr dxil olan Şturm-Liuvill məsələsi üçün göstərilmişdir ki, məsələnin məxsusi funksiyaları sistemi istənilən məxsusi funksiyanı atdıqdan sonra L_2 fəzasında Riss bazisi təşkil edir. Bu nəticələrin müxtəlif ümumiləşmələri N.B.Kərimovun, V.S.Mirzəyevin, Z.S.Əliyevin, R.Q.Poladovun, D.B.Marçenkovun, Y.N.Əliyevin işlərində alınmışdır. Daha ümumi şəkildə bu məsələlərin abstrakt analoqları B.T.Bilalovun və T.Muradovun işində baxılmışdır. Bu işdən əvvəl isə İ.S.Qoxberq, A.S.Markus, A.A.Şkalikov defekt bazisləri öyrənmişlər. Dissertasiya işində bu məsələlər abstrakt qoyuluşda ətraflı tədqiq olunmuş və konstruktiv zəruri və kafi şərtlər tapılmışdır.

Diferensial operatorların məxsusi və qoşma funksiyalar sisteminin bazislik xassələrini göstərərkən operatorların həyəcanlanma nəzəriyyəsinin metodları ilə yanaşı Hilbert və Banax fəzalarında sistemlərin bazisliyi nəzəriyyəsinin metodları, habelə bazislərin dayaniqlığı məsələləri də istifadə olunur. Yaxın sistemlərin bazislik xassələrinin tədqiqi nəzəriyyəsi öz başlanğıcını Peli və Vinerin məşhur işindən götürür. Sonralar Levinson bu nəticəni yaxşılaşdırır, Kades isə yaxşılaşdırılmayan qiymətləndirmə alır. M.Q.Kreynin, D.P.Milmanın və M.A.Rutmanın işində ilk dəfə olaraq Banax fəzasının bazisinin dayanıqlıq xassəsi göstərilmişdir. N.K.Bari göstəemişdir ki, Hilbert fəzası halında sistemin Riss bazisliyi üçün kafi şərt onun ortonormal bazisə kvadratik yaxın olması və $\omega -$xətti asılı olmamasıdır. B.T.Bilalovun işlərində Peli-Vinerin və N.K.Barinin teoremlərinin Banax fəzası halına ümumiləşməsi verilmişdir. B.T.Bilalov göstərmişdir ki, bu tipli teoremlərdə sistemin $\omega -$xətti asılı olmamasıonun tamlığı, minimallığı, o cümlədən bazisliyinə ekvivalentdir. Eksponent, sinus və kosinus tipli sistemlərin bazislik xassələrinə həsr olunmuş işlərdən A.M.Sedletskinin, Y.İ.Moiseyevin, A.İ.Barmenkovun, A.Yu.Kazminin, G.G.Devderianinin, B.T.Bilalovun və digərlərinin işlərini qeyd etmək olar.

Adi diferensial operatorların təbii ümumiləşməsi kvazidiferensial operatorlardır. $[0,1]$parçasında kvazidiferensial operator üçün spektral məsələ

$$y^{[n]} = \lambda y, \tag{3}$$

tənliyi və

$$U_\nu(y) = \sum_{j=0}^{n-1}\left(\alpha_{\nu j} y^{[j]}(0) + \beta_{\nu j} y^{[j]}(1)\right) = 0, \ \nu = \overline{1,n}, \tag{4}$$

sərhəd şərtləri ilə verilir; burada $y^{[j]}$, $j = \overline{0,n}$, - $y(x)$funksiyasının kvazitörəmələridirlər və aşağıdakı düsturlarla təyin olunurlar

$$y^{[0]} = p_{00} y, y^{[k]} = p_{kk}\frac{d}{dx} y^{[k-1]} + \sum_{j=1}^{k-1} p_{kj} y^{[j]}, \ k = \overline{1,n}. \tag{5}$$

(5) kvazitörəmələri ilk dəfə D.Şin tərəfindən daxil edilmişdir. V.S.Rıxlovun işlərində $p_{kk}(x) \equiv 1$, $k = \overline{0,n}$, halında (3), (4) requlyar məsələləri üşün məxsusi və qoşma funksiyalar üzrə spektral ayrılışların yığılma məsələləri, həmçinin (3), (4) güclü requlyar məsələləri üçün məxsusi və qoşma funksiyalar sisteminin $L_2(0,1)$fəzasında şərtsiz bazisliyi haqqında teorem isbat edilmişdir. Müəllifin işlərində (3) kvazidiferensial tənliyi üçün qeyri-lokal kəsilən sərhəd şərtlərinə baxılır. Adi diferensial operatorlar üçün

qeyri-lokal sərhəd məsələləri müxtəlif müəlliflər tərəfindən baxılmışdır. Son zamanlar lokal olmayan sərhəd məsələlərinə artan marağın olması əsasən fizikanın tələbatı ilə izah olunur. Bununla əlaqədar A.V.Bitsadze və A.A.Samarskinin işini qeyd edək ki, burada ilk dəfə olaraq lokal olmayan sərhəd şərtlərinin baxılmasına gətirən riyazi modellər öyrənilir. Sonralar bu məsələlər bir sıra müəlliflərin işlərində inkişaf etdirilmişdir. A.A.Şkalikov Stiltes inteqralı ilə verilən ümumi sərhəd şərtləri halında requlyarlıq anlayışını daxil etmiş və məxsusi və qoşma funksiyalar sisteminin $L_2(0,1)$ fəzasında Riss bazisliyi haqqında teorem isbat etmişdir. V.A.İlin və Y.İ.Moiseyev ikinci tərtib diferensial operator üçün lokal olmayan sərhəd məsələlərini öyrənmişlər. A.M.Kroll inteqral sərhəd şərtli diferensial operatorları öyrənmişdir. Kəsilən çoxnöqtəli və ümumi inteqral sərhəd şərtləri ilə verilən adi diferensial və kvazidiferensial operatorlar üçün L_2 -dəRiss bazisliyi və L_p -də bazislik haqqında teoremlərin analoqları müəllifin işlərində isbat olunmuşdur. Bu nəticələrin digər ümumiləşmələri həmçinin A.M.Qomilko və G.V.Radziyevskinin işində alinmışdır. Son işlərdən A.V.Maxney və R.M.Tasiyin, A.A.Şkalikov və A.M.Savçukun, H.Hüseynov və R.Paşayevin işlərini qeyd etmək olar ki, bunlarda kvazidiferensial operatorlarla təsvir olunan ümumiləşmiş əmsallı diferensial operatorlara baxılır.

Requlyar olan, lakin güclü requlyar olmayan sərhəd şərtləri ilə verilən diferensial operatorları ayrıca qeyd etmək lazımdır. Belə operatorların məxsusi və qoşma funksiyalar sisteminin L_2 -də Riss bazisliyi və mötərizəli Riss bazisliyi A.A.Şkalikovun, N.B.Kərimov və X.R.Məmmədovun, A.S.Makinin, N.Dərnək və O.A.Vəliyevin, P.Y.Cakov və B.S.Mityaginin, V.M.Qurbanovun işlərində tədqiq olunmuşdur.

Spektral ayrılışların yığılmsı məsələləri ilə pozitiv operatorların kəsr dərəcələri nəzəriyyəsinin sıx əlaqəsi vardır. Bununla əlaqədar M.A.Krasnoselskinin, Y.İ.Pustılnikin, Ş.A.Alimovun, M.S.Aqranoviçin və digərlərinin işlərini qeyd etmək olar. Pozitiv operatorların kəsr qüvvətlərinin təyin oblastlarının təsviri mühüm məsələlərdən sayılır. D.Fudzivaranın, P.Qrivarın, R.Silinin, İ.D.Yevzerovun, P.Y.Sobolevskinin işləri bu məsələlərə həsr olunmuşdur.

Yuxarıda deyilənlərdən çıxır ki, adi diferensial və kvazidiferensial operatorların spektral xassələri əsasən ikinöqtəli və inteqral sərhəd şərtləri üçün öyrənilmişdir. Kəsilən çoxnöqtəli və kəsilən inteqral sərhəd şərtli diferensial və kvazidiferensial operatorlar isə ümumi qoyuluşda öürənilməmişdir. Dissertasiya işində kəsilən diferensial operatorların öyrənilməsi üçün ümumi yanaşma verilir, kəsilən diferensial operatorların məxsusi və qoşma funksiyalar sisteminin bazislik məsələlərini tədqiq etmək üçün yeni metodlar təklif olunur, belə operatorların kəsr qüvvətlərinin təyin oblastlarının təsviri verilir.Alınan nəticələrin bəziləri hətta ikinöqtəli və inteqral sərhəd şərtləri ilə verilən adi diferensial operatorlar halında da yenidir. Ona görə də hesab edirik ki, dissertasiya işinin mövzusu aktualdır və elmi maraq kəsb edir.

İşin məqsədi.1. Diferensial operatorlar üçün sərhəd şərtlərinə spektral parametr daxil olan spektral məsələlərin məxsusi və qoşma vektorlar sisteminin bazislik xassələrini tədqiq etməyə imkan verən abstrakt metodların işlənməsi.

2. Kəsilən diferensial operatorların spektral xassələrini tədqiq etmək üçün abstrakt metodların işlənməsi.

3. Əsas intervalın müxtəlif hissələrində müxtəlif tərtibə malik kəsilən diferensial operatorların doğurduğu bütün düzgün operatorların təsvirini vermək, ümumi inteqral sərhəd şərtləri ilə verilən belə operatorların Qrin funksiyasının qurulması.

4. Requlyar çoxnöqtəli və inteqral sərhəd şərtləri ilə verilən kəsilən diferensial operatorların məxsusi və qoşulmuş funksiyalar sisteminin bazislik xassələrini tədqiq edilməsi.

5. İnteqral sərhəd şərtləri ilə verilən kəsilən diferensial operatorların kəsr qüvvətlərinin təyin oblastlarının təsvir edilməsi.

6. Riyazi fizikanın və mexanikanın sərhəd şərtlərinə spektral parametr daxil olan kəsilən diferensial operatorlar üçün spektral məsələlərə gətirilən bəzi model məsələlərinin spektral xassələrinin öyrənilməsi.

Elmi yeniliklər. Dissertasiyada aşağıdakı əsas nəticələr alınmışdır:

- Banax fəzasında defekt sistemlərin tamlığı, minimallığı və bazisliyi üçün zəruri və kafi şərtlər alınmışdır;
- altfəzaların müvafiq sistemlərindən çıxış edərək Banax fəzalarının düz cəmində verilmiş sistemlərin tamlığı, minimallığı, bazisliyi və freymliliyi haqqında teoremlər isbat edilmişdir;
- kəsilən diferensial operatorların doğurduğu minimal operatorun həllolunan genişlənmələrinin və maksimal operatorun düzgün daralmalarının, xüsusi halda bütün düzgün operatorların təsviri verilmiş, ümumi inteqral sərhəd şərtləri ilə verilmiş belə operatorların Qrin funksiyası qurulmuşdur;
- kəsilən diferensial operatorlar üçün çoxnöqtəli və inteqral sərhəd şərtlərinin requlyar sinifləri ayrılmış, requlyar sərhəd məsələlərinin məxsusi ədədlərinin asimptotikası tapılmış və məxsusi və qoşma funksiyalar

sisteminin L_p fəzasında bazisliyi, o cümlədən L_2 fəzasında Riss bazisliyi haqqında teoremlər isbat edilmişdir;
- ümumi inteqral sərhəd şərtləri ilə verilən kəsilən diferensial operatorların pozitivliyi isbat olunmuş, belə operatorların kompleks qüvvətləri üçen qiymətləndirmə alınmışdır;
- ümumi inteqral sərhəd sərhəd şərtləri ilə verilən kəsilən diferensial operatorlarınkəsr qüvvətlərinin təyin oblastlarının təsviri verilmiş, həmçinin çoxnöqtəli sərhəd şərtləri halında yarımtam kəsr qüvvətlərinin təyin oblastlarının konstruktiv təsviri verilmişdir;
- sərhəd şərtlərinə spektral parametr daxil olan bəzi model diferensial operatorların məxsusi və qoşma funksiyalar sisteminin bazisliyi haqqında teoremlər isbat olunmuşdur;
- kəsilmə şərtinə spektral parametr daxil olan bəzi kəsilən diferensial operatorların məxsusi və qoşma funksiyalarının bazislik xassələrini öyrənmək üçün yeni yanaşma təklif olunmuş, məxsusi və qoşma funksiyalar sisteminin $L_p, 1 < p < +\infty$, Lebeq fəzalarında və $M^{p,\alpha}, 1 < p < +\infty,\ 0 < \alpha \leq 1$, Morri tipli fəzalarda bazisliyi isbat olunmuşdur.

Ümumi tədqiqat metodikası. İşdə həqiqi və kompleks dəyişənli funksiyalar nəzəriyyəsinin, diferensial operatorlar nəzəriyyəsinin, funksional analizin metodları, o cümlədən Hilbert və Banax fəzalarında xətti operatorlar nəzəriyyəsinin metodları, bazislər və freymlər nəzəriyyəsinin, approksimasiya nəzəriyyəsinin metodları tətbiq olunur.

Nəzəri və praktiki əhəmiyyəti. Dissertasiyanın nəticələri nəzəri xarakter daşıyır. Onlardan diferensial operatorların spektral nəzəriyyəsində, riyazi fizikanın və mexanikanın müxtəlif məsələlərinin, o cümlədən rəqslər nəzəriyyəsinin, hidromexanikanın, plastiklik nəzəriyyəsinin öz-özünə qoşma olmayan diferensial operatorların öyrənilməsinə gətirən məsələlərinin həllinin Furye metodu ilə əsaslandırılması zamanı istifadə oluna bilər. Bu nəticələrdən həmçinin approksimasiya nəzəriyyəsində də istifadə oluna bilər.

İşin aprobasiyası. Dissertasiyanın əsas nəticələri akademik M.G.Qasımovun "Funksional analiz və onun tətbiqləri" adlı seminarında, AMEA RMİ-nin ümuminstitut seminarında, həmçinin RMİ-nin "Qeyri harmonik analiz" (AMEA-nın müxbir üzvü, prof. B.T.Bilalov), "Diferensial tənliklər" (prof. Ə.B.Əliyev), "Funksional analiz" (prof. H.İ.Aslanov), "Funksiyalar nəzəriyyəsi" (AMEA-nın professoru, r.e.d. V.E.İsmaylov) şöbələrinin seminarlarında, BDU-nun "Funksiyalar nəzəriyyəsi və funksional analiz” (prof. ƏM.Əhmədov) kafedrasının seminarında, AMEA-nın müxbir üzvü, prof. İ.T.Məmmədovun 50 illik yubileyinə həsr olunmuş riyaziyyat və mexanika üzrə Beynəlxalq konfransda (Bakı, 2005), AMEA-nın müxbir üzvü, prof. B.Ə.İsgəndərovun 70 illik yubileyinə həsr olunmuş riyaziyyat və mexanika üzrə 12-ci Beynəlxalq konfransda (Bakı, 2006), AMEA-nın həqiqi üzvü A.C.Hacıyevin 70 illik yubileyinə həsr olunmuş riyaziyyat və mexanika üzrə 13-cü Beynəlxalq konfransda (Bakı, 2007), AMEA RMİ-nin 50 illik yubileyinə həsr olunmuş riyaziyyat və mexanika üzrə Beynəlxalq konfransda (Bakı, 2009), əməkdar elm xadimi, akademik Ə.İ.Hüseynovun 100 illik yubileyinə həsr olunmuş elmi konfransda (Bakı, 2007),akademik Z.İ.Xəlilov 100 ilunlik yubileyinə həsr olunmuş “Funksional analiz və onon tıtbiqləri” Beynəlxalq konfransında (Bakı, 2011), prof. A.Q.Kostyuçenkonun xatirəsinə həsr olunmuş “Operatorların spektral nəzəriyyəsi və tətbiqləri” Beynəlxalq konfransında (Ufa, Rusiya, 2011), MADEA-7 Beynəlxalq konfransında (Bakı, 2015), Gürcüstan Riyaziyyat Cəmiyyətinin VI konfransında, (Batumi, Gürcüstan, 2015), “Qeyri harmonik analiz və diferensial tənliklər” Beynəlxalq Workshop-da (Bakı, 2016) məruzə edilmişdir.

Nəşrlər. Dissertasiya işinin əsas nəticələri 46 elmi işdə nəşr olunmuşdur. Onların siyahısı avtoreferatın sonunda verilmişdir.

İşin strukturu və həcmi. Dissertasiya işi giriş, beş fəsil və 249 adda ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin həcmi 262 səhifədir.

İŞİN MƏZMUNU

Girişdə dissertasiya işinin mövzusunun aktuallığı əsaslandırılır, dissertasiya işinin mövzusu ilə əlaqəli olan nəticələrin qısa tarixi icmalı verilir və dissertasiyanın əsas nəticələri şərh olunur.

Birinci fəsil beş fəsildən ibarətdir və Banax fəzalarında bazislər və freymlər nəzəriyyəsinin bəzi məsələlərinə həsr olunmuşdur.

1.1-də standart işarələmələr daxil edilir, bazislər nəzəriyyəsinin əsas anlayışları, o cümlədən tamlıq, minimallıq,bazislik və mötərizəli bazislik üçün kriterilər verilmişdir.

1.2-də defekt bazislər öyrənilir. X Banax fəzasının $\{x_n\}_{n\in N}$ ardıcıllığı o zaman defekt bazis adlanır ki, ondan sonlu sayda element atdıqdan sonra alınan ardıcıllıq özünün qapalı xətti örtüyündə bazis olsun.

Tutaq ki, X_0 hər hansı Banax fəzasıdır və $X = X_0 \oplus C^m$; burada C^m – kompleks ədədlər çoxluğunun m nüsxəsidir. Onda X

$$\|\tilde{u}\|_X = \left(\|u\|_{X_0}^2 + \sum_{k=1}^{m} |\alpha_k|^2 \right)^{\frac{1}{2}}$$

normasına nəzərən Banax fəzası təşkil edir; burada $\tilde{u} = (u; \alpha_1, ..., \alpha_m) \in X$, $u \in X_0$, $\alpha_k \in C$, $k \in 1:m$. Bundan başqa $X^* = X_0^* \oplus C^m$ olur. 1.2 yarımfəslinin əsas nəticəsi aşağıdakı teoremlərdir.

Teorem 1. *Tutaq ki,* $X^* = X_0^* \oplus C^m$ *fəzasında* $\{\tilde{u}_n\}_{n \in N}$ *minimal sistemi verilmişdir və* $\tilde{u}_n = (u_n; \alpha_{n1}, ..., \alpha_{nm})$, $\{\tilde{\vartheta}_n\}_{n \in N}$ *sistemi isə onun biortoqonalıdır və* $\tilde{\vartheta}_n = (\vartheta_n; \beta_{n1}, ..., \beta_{nm}) \in X^*$, *bundan başqam sayda müxtəlif natural ədədlərdən ibarət* $J = \{n_1, ..., n_m\} \subset N$ *– çoxluğu üçün* $N_J = N \setminus J$ *işarə edək. Əgər* $\delta = \det \left\| \beta_{n_k j} \right\|_{k,j=1}^{m} \neq 0$ *olarsa, onda* $\{u_n\}_{n \in N_J}$ *sistemi* X_0*-da minimaldır. Bu halda biortoqonal sistem aşağıdakı şəkildə olur:*

$$\vartheta_n^* = \frac{1}{\delta} \begin{vmatrix} \vartheta_n & \vartheta_{n_1} & \dots & \vartheta_{n_m} \\ \beta_{n1} & \beta_{n_1 1} & \dots & \beta_{n_m 1} \\ . & . & . & . & . \\ \beta_{nm} & \beta_{n_1 m} & \dots & \beta_{n_m m} \end{vmatrix}.$$

Əgər $\{\tilde{u}_n\}_{n \in N}$ *sistemi* X *-də tam və minimal, və* $\delta = 0$ *olarsa, onda* $\{u_n\}_{n \in N_J}$ *sistemi* X_0*-da tam deyil.*

Teorem 2. *Tutaq ki,* $\{\tilde{u}_n\}_{n \in N}$ *sistemi* X *-də tam və minimaldır. Əgər* $\delta \neq 0$ *olarsa, onda* $\{u_n\}_{n \in N_J}$ *sistemi* X_0*-da tam və minimaldır.*

Teorem 3. *Tutaq ki,* $\{\tilde{u}_n\}_{n \in N}$ *sistemi* X *fəzasının bazisidir. Onda* $\{u_n\}_{n \in N_J}$ *sisteminin* X_0 *fəzasında bazis olması üçün zəruri və kafi şərt* $\delta \neq 0$ *şərtinin ödənməsidir.*

Teorem 4. *Tutaq ki,* X_0 *- Hilbert fəzası və* $\{\tilde{u}_n\}_{n\in N}$ *sistemi* $X = X_0 \oplus C^m$ *fəzasında Riss bazisidir. Onda* $\{u_n\}_{n\in N_J}$ *sisteminin* X_0 *fəzasında Riss bazisi olması üçün zəruri və kafi şərt* $\delta \neq 0$ *şərtinin ödənməsidir.*

1.3-də Banax fəzasında verilən sistemdən sonlu sayda elementi dəyişməklə alınan sistemin tamlığı, minimallığı və bazisliyi üçün zəruri və kafi şərtlər alınmış, həmçinin bu nəticələrin 1.2 yarımfəslində isbat olunmuş teoremlərlə əlaqəsi göstərilmişdir.

1.4 -də Banax fəzasının altfəzalara ayrılışına baxılır və altfəzaların bazisindən çıxış edərək fəzanın bazisinin qurulmasının bir üsulu verilmişdir. Bazis qurmağın bu üsulu kəsilən diferensial operatorların spektral nəzəriyyəsində geniş tətbiqə malikdir. Tutaq ki, $X = X_1 \oplus ... \oplus X_m$ düz cəmə ayrılışı verilmişdir; burada X_i, $i \in 1:m$, hər hansı Banax fəzalarıdır. X -də normanı aşağıdakı düsturla təyin edək:

$$\|x\|_X = \sqrt{\sum_{i=1}^{m} \|x_i\|_{X_i}^2} \;;$$

burada $x \in X \Leftrightarrow x = (x_1, x_2, ..., x_m)$, $x_k \in X_k$, $k \in 1:m$. Onda $X^* = X_1^* \oplus ... \oplus X_m^*$ və $f \in X^*$, $x \in X$ üçün aşağıdakı münasibət doğrudur

$$< x, f > = \sum_{i=1}^{m} < x_i, f_i > ;$$

Burada $f = (f_1, ..., f_m)$ və f -in norması üçün

$$\|f\|_{X^*} = \sqrt{\sum_{i=1}^{m} \|f_i\|_{X_i^*}^2}$$

düsturu doğrudur.

Tutaq ki, hər bir $i \in 1:m$ üçün X_i fəzasında $\{u_n^{(i)}\}_{n\in N}$ sistemi verilmişdir. X fəzasında aşağıdakı sistemə baxaq:

$$\tilde{u}_n^{(i)} = \left(a_{i1}u_n^{(1)}, a_{i2}u_n^{(2)}, ..., a_{im}u_n^{(m)}\right), i \in 1:m; n \in N, \qquad (6)$$

burada a_{ij} kompleks ədədlərdir. $\Delta = \det\left(a_{ij}\right)_{i,j\in 1:m}$ işarə edək. Bu yarımfəslin əsas nəticəsi aşağıdakı teoremlərdir.

Teorem 5. *Tutaq ki,* $\left\{u_n^{(i)}\right\}_{n\in N}$ *sistemi* X_i, $i\in 1:m$, *fəzasındatamdır (minimaldır). Əgər* $\Delta\neq 0$ *olarsa, onda* $\left\{\tilde{u}_n^{(i)}\right\}_{i\in 1:m;\, n\in N}$ *sistemi də* X *fəzasında tamdır (minimaldır).*

$\Delta=0$ halında teorem doğru olmur və bu halda da müvafiq teoremlər isbat olunmuşdur. Daha sonra (6) sisteminin X fəzasında bazisliyi tədqiq olunur. Ayrılıqda iki hala baxılır. Birinci halda fərz olunur ki X_i, $i\in 1:m$, fəzaları izomorfdurlar. Bu halda aşağıdakı teorem doğrudur.

Teorem 6. *Tutaq ki,* $X_i, i\in 1:m$, *Banax fəzaları cüt-cüt izomorfdurlarvə* $\left\{u_n^{(i)}\right\}_{n\in N}$ *sistemləri uyğun olaraq bu fəzalarda izomorf bazislərdir. Əgər* $\Delta\neq 0$ *olarsa, onda* $\left\{\tilde{u}_n^{(i)}\right\}_{i\in 1:m;\, n\in N}$ *sistemi* X *fəzasında* $\left\{\tilde{u}_n^{(i)}\right\}_{i\in 1:m;\, n\in N}$ *bazisinə izomorf bazis olur.*

Daha sonra X_i, $i\in 1:m$, fəzalarının izomorfluğu tələb olunmayan hala baxılır. Bu halda aşağıdakı teorem isbat olunmuşdur.

Teorem 7. *Tutaq ki,* $\left\{u_n^{(i)}\right\}_{n\in N}$ *sistemi* X_i, $i\in 1:m$, *fəzasında bazis təşkil edir. Əgər* $\Delta\neq 0$ *olarsa, onda* $\left\{\tilde{u}_n^{(i)}\right\}_{i\in 1:m;\, n\in N}$ *sistemi* X *fəzasında mötərizəli bazis təşkil edir. Əgər əlavə olaraq* $\sup\limits_n\left\{\left\|u_n^{(i)}\right\|;\left\|\vartheta_n^{(i)}\right\|\right\}<+\infty,\ i\in 1:m$, *şərtləri ödənərsə (burada* $\left\{\vartheta_n^{(i)}\right\}_{n\in N}$ *sistemi* $\left\{u_n^{(i)}\right\}_{n\in N}$ *sisteminin biortoqonalıdır), onda* $\left\{\tilde{u}_n^{(i)}\right\}_{i\in 1:m;\, n\in N}$ *sistemi* X *-də bazis təşkil edər.*

1.5-də əvvəlki yarımfəsildə olduğu kimi, Banax fəzasının altfəzaların düz cəminə ayrılışına baxılır və altfəzaların atomar ayrılışlarından çıxış edərək fəzada atomar ayrılış təşkil etmənin bir üsulu verilir. Tutaq ki, $X=X_1\oplus\ldots\oplus X_m$ düz cəmə ayrılışı verilmişdir; burada X_i, $i\in 1:m$ müəyyən Banax fəzaları və hər bir $i\in 1:m$ üçün $\left\{u_n^{(i)}\right\}_{n\in N}\subset X_i$ sistemi verilmişdir. X fəzasında aşağıdakı sistemə baxaq

$$u_{in}^0=(\underbrace{0,\ldots,0,u_n^{(i)}}_{i},0,\ldots,0), i\in 1:m;\ n\in N\,.$$

Tutaq ki, K - hər hansı əmsallar fəzasıdır və $K_m = K^m$. Bu fəzada $\left\{\vec{\lambda}_n\right\} = \left\{\lambda_n^{(1)},...,\lambda_n^{(m)}\right\} \in K^m$ elementi üçün normanı belə təyin edək

$$\left\|\vec{\lambda}_n\right\| = \sum_{k=1}^{m}\left\|\left\{\lambda_n^{(k)}\right\}\right\|_K .$$

$\vartheta = \left(\vartheta^{(1)},...,\vartheta^{(m)}\right) \in X^*$ götürək və $\forall x \in X$, $x = (x_1,...,x_m)$, üçün $\vec{\vartheta}(x) = \left(\vartheta^{(1)}(x_1),...,\vartheta^{(m)}(x_m)\right)$ işarəedək. Bundan başqa $y = (y_1,..., y_m) \in X$ üçün $\vec{\vartheta}(x)y = \left(\vartheta^{(1)}(x_1)y_1,...,\vartheta^{(m)}(x_m)y_m\right) \in X$ başa düşəcəyik. Aşağıdakı tərifi daxil edək.

Tərif 1. *Aşağıdakı şərtlər ödəndikdə deyəcəyik ki,* $\left(\{u_n\};\{\vec{\vartheta}_n\}\right)$, $\left(u_n \in X, \vec{\vartheta}_n \in X^*\right)$ *cütlüyü* X *fəzasının* K_m *əmsallar fəzasına nəzərən atomar ayrılışıdır:*

i) $\left\{\vec{\vartheta}_n(x)\right\} \in K_m,\ \forall x \in X$;

ii) $\exists A, B > 0;\ A\left\|\left\{\vec{\vartheta}_n(x)\right\}\right\|_{K_m} \le \|x\|_X \le B\left\|\left\{\vec{\vartheta}_n(x)\right\}\right\|_{K_m},\ \forall x \in X$;

iii) $x = \sum_{n=1}^{\infty}\vec{\vartheta}_n(x)u_n,\ \forall x \in X$.

$\vec{u}_{in} = \left(a_{i1}u_n^{(1)},...,a_{im}u_n^{(m)}\right),\ i \in 1:m;\quad n \in N,$ sisteminə baxaq, burada a_{ij} müəyyən ədədlərdir və $A = \left(a_{ij}\right)_{i,j=1}^{m}$, $\Delta = \det A$ işarə edək. Aşağıdakı əsas teorem isbat edilmişdir.

Teorem 8. *Tutaq ki,* $X = X_1 \oplus ... \oplus X_m$ *düz cəmə ayrılışı verilmişdir,* $\left(\left\{u_n^{(i)}\right\}_{n\in N};\left\{\vartheta_n^{(i)}\right\}_{n\in N}\right)$ *cütü* $X_i,\ i \in 1:m$, *fəzasında* K *-ya nəzərən atomar ayrılışdır,* $T_{ij} \in L\left(X_i, X_j\right)$ *-izomorfizmlərdir və* $T_{ij}u_n^{(i)} = u_n^{(j)},\quad \forall n \in N,\quad i \ne j$. *Fərz edək ki,* $T_{ij},\ i, j \in 1:m$, *operatorları A) şərtini ödəyirlər,* $\Delta \ne 0$ *və* $T \in L(X)$ *operatoru* $\left(a_{ij}T_{ij}\right)_{i,j=1}^{m}$, *matrisi ilətəyin olunur.*

Onda $\left(\left\{\left\{Tu_{in}^{0}\right\}_{n\in N}\right\}_{i\in 1:m};\ \left\{\left\{\left(T^{*}\right)^{-1}\vartheta_{in}^{0}\right\}_{n\in N}\right\}_{i\in 1:m}\right)$ *cütü də* X *-in* K_m *fəzasına nəzərən atomar ayrılışıdır..*

İkinci fəsil beş yarımfəsildən ibarətdir və kəsilən diferensial operatorların ümumi nəzəriyyəsinin bəzi məsələlərinə həsr olunmuşdur.

2.1-də kvazidiferensial operatorlar öyrənilir və ümumi nəzəriyyədən bəzi zəruri anlayışlar və faktlar verilmişdir.

2.2-də kəsilən kvazidiferensial operatorlar öyrənilir. Tutaq ki, $-\infty < a = x_0 < x_1 < x ... < x_l = b < +\infty$ və hər bir (x_{s-1}, x_s) intervalında

$$l_s(y) = y^{[n_s]},$$

kvazidiferensial ifadəsi verilmişdir, beləki $p_{skj}(x)$ əmsalları hər bir (x_{s-1}, x_s) intervalında A) şərtlərini ödəyirlər. Kvazidiferensial ifadələrin $n_1, ..., n_l$ tərtibləri, ümumiyyətlə, müxtəlifdirlər. Tutaq ki, $\chi_s(x)$ funksiyası (x_{s-1}, x_s) intervalının xarakteristik funksiyasıdır və $f(x) \in L_q(a,b)$. Aşağıdakı tənliyə baxaq

$$l(y) \overset{def}{=} \sum_{s=1}^{l} \chi_s(x) l_s(y) = f(x). \tag{7}$$

$$W_{p,q}^{[n_1, ..., n_l]}(x_0, x_1, ..., x_l) = W_{p,q}^{[n_1]}(x_0, x_1) \dot{+} ... \dot{+} W_{p,q}^{[n_l]}(x_{l-1}, x_l)$$

işarə edək, burada $W_{p,q}^{[k]}(x_{s-1}, x_s), s = 1:l,\ k \in 1:n$, elə $y(x) \in L_p(x_{s-1}, x_s)$ funksiyaları fəzasıdır ki, $(k-1)-$ci tərtibə qədər kvazitörəmələri (x_{s-1}, x_s) intervalında mütləq kəsilməzdirlər, $y^{[k]}(x)$ kvazitörəməsi isə $L_q(x_{s-1}, x_s)$ fəzasına daxildir. (7) tənliyinin həlli dedikdə elə $y(x) \in W_{p,q}^{[n_1, ..., n_l]}(x_0, x_1, ..., x_l)$ funksiyası başa düşülür ki, (a,b) intervalında sanki hər yerdə (7) tənliyini ödəyir. Operatorların düz cəmi anlayışından istifadə edərək,

$$\widetilde{L} = \widetilde{L}_1 \dot{+} ... \dot{+} \widetilde{L}_l \text{ и } L_0 = L_{01} \dot{+} ... \dot{+} L_{0l}, \tag{8}$$

işarəedək, burada $\widetilde{L}_s$ və L_{0s}, uyğun olaraq, $l_s(y) = y^{[n_s]}$ kvazidiferensial ifadəsinin doğurduğu maksimal və minimal operatorlardır.Analoji olaraq

$$\widetilde{T} = \widetilde{T}_1 \dot{+} ... \dot{+} \widetilde{T}_l \text{ и } T_0 = T_{01} \dot{+} ... \dot{+} T_{0l}, \tag{9}$$

operatorlarını təyin edək, burada $\widetilde{T}_s$ и T_{0s} uyğun olaraq, $l_s^{\bullet}(y) = y^{\{n_s\}}$ qoşma kvazidiferensial ifadəsinin doğurduğu maksimal və minimal operatorlardır, (8) tənliyinin qoşması isə aşağldakı şəkildədir

$$l^*(z) \overset{def}{=} \sum_{s=}^{l} \chi_s(x) l_s^*(z) = g(x), \; g \in L_{p'}(a,b).$$

Teorem 9. *(8), (9) bərabərlikləri ilə təyin olunan* $\widetilde{L}, L_0, \widetilde{T}, T_0$ *operatorları qapalı sıx təyin olunmuş operatorlardır və aşağıdakı münüsibətləri ödəyirlər:*

1) $\widetilde{L}^* = T_0,\; T_0^* = \widetilde{L},\; \widetilde{T}^* = L_0,\; L_0^* = \widetilde{T}$ *;*

2) $\operatorname{Im} L_0 = \left(Ker\widetilde{T}\right)^{\perp},\; \operatorname{Im} T_0 = \left(Ker\widetilde{L}\right)^{\perp}$.

2.3-də (7) kəsilən kvazidiferensial tənliyinin doğurduğu bütün düzgün operatorların təsviri verilir. Bəzi anlayışları daxil edək.

Tərif 2. *Əgər* L *operatoru* $\widetilde{L}$ *maksimal operatorunun daralmasıdırsa* $\left(L \subset \widetilde{L}\right)$ *və bütün* $L_q(a,b)$*-də təyin olunmuş* L^{-1} *məhdud tərs operatoru varsa, onda* L *operatoruna* $\widetilde{L}$ *maksimal operatorunun düzgün daralması deyilir.*

Tərif 3. *Əgər* L *operatoru* L_0 *minimal operatorunun genişlənməsidirsə* $L_0 \left(L \supset L_0\right)$ *və bütün* $L_q(a,b)$*- də təyin olunmuş məhdud* L^{-1} *tərs operatoru varsa, onda* L *operatoruna* L_0 *minimal operatorununhəllolunan genişlənməsideyilir.*

Tərif 4. *Eyni zamanda* L_0*-ın həllolunangenişlənməsi və* $\widetilde{L}$*-nın düzgün daralması olan* L *qapalıoperatoruna (7) tənliyinin doğurduğu düzgün operator deyilir.*

Tutaq ki, L_{cs} operatoru $l_s(y) = y^{[n_s]}$ kvazidiferensial ifadəsinin və $y^{[k]}(x_{s-1}+0) = 0,\; k \in 1 : n_s - 1$, başlanğıc şərtlərinin doğurduğu operatordur. Aydındır ki, $L_{0s} \subset L_{cs} \subset \widetilde{L}_s$ və bütün $L_q(x_{s-1}, x_s)$-də təyin olunmuş məhdud L_{cs}^{-1} operatoru var. $L_c = L_{c1} \dot{+} \ldots \dot{+} L_{cl}$ işarə edək. Onda L_c operatoru (7) tənliyinin doğurduğu düzgün operator olar.Aşağıdakı teoremlər isbat olunmuşdur.

Teorem 10. *Onepamop* L *operatoru yalnız o zaman* $\widetilde{L}$ *maksimal operatorunun düzgün daralması olar ki, o aşağıdakı şəkildə göstərilə bilsin:*

$$\left(L^{-1}f\right)(x)=\left(L_c^{-1}f\right)(x)+\sum_{s=1}^{l}\sum_{j=1}^{n_s}< f,g_{sj} > \chi_s(x)y_{sj}(x), \qquad (10)$$

burada $f(x)\in L_q(a,b)$*- ixtiyari funksiya,* $g_{sj}(x)\in L_{q'}(a,b)$*- müəyyən funksiyalar,* $y_{sj}(x)$, $j\in 1:n_s$*, isə* $y^{[n_s]}=0$ *tənliyinin*

$$y_{sj}^{[k-1]}(x_{s-1}+0)=\delta_{kj}, \quad k,j\in 1:n_s .$$

şərtlərini ödəyən fundamental həllər sistemidir.Buhalda L *düzgün daralmasının* $D(L)$ *təyin oblastı elə* $y\in D(\widetilde{L})$ *funksiyalarından ibarətdir ki,*

$$y^{[j-1]}(x_{s-1}+0)=<\tilde{L}y,g_{sj}>, \quad j\in 1:n_s, \quad s\in 1:l,$$

sərhəd şərtlərini ödəyilər.

Teorem 11. $L\subset\widetilde{L}$ *düzgün daralması yalnız o zaman* L_0 *minimal operatorunun həllolunan genişlənməsi olar ki, (10) düsturundan olan* g_{sj} *funksiyaları* $Ker\widetilde{T}$ *-yə daxil olsunlar.*

Teorem 12. *(7) tənliyinin doğurduğu hər bir* L *düzgün operatoru onun* $D(L)$ *təyin oblastının* $D(\widetilde{L})$*-dən olan və*

$$y^{[j-1]}(x_{s-1}+0)=\sum_{\tau=1}^{l}\sum_{k=0}^{n_\tau-1}\left(a_{sj\tau k}y^{[k]}(x_{\tau-1}+0)+b_{sj\tau k}y^{[k]}(x_\tau-0)\right),$$

şərtlərini ödəyən elementlərdən ibarət olması ilə təsvir olunur.

$p=2$ halında adi diferensial operatorlar üçün müvafiq teorem A.A.Dezin tərəfindən isbat olunmuşdur.

2.4 -də (7) tənliyi və

$$U_\nu(y)=\sum_{s=1}^{l}\sum_{j=0}^{n_s}\int_{x_{s-1}}^{x_s}y^{[j]}(x)g_{\nu sj}(x)dx=0, \quad \nu\in 1:n,$$

xətti asılı olmayan sərhəd şərtlərinin doğurduğu L operatoruna baxılır, burada $n=n_1+...+n_l$.Kvazidiferensial ifadənin əmsalları üçün fərz olunur ki, onlar hər bir (x_{s-1},x_s) intervalında $p=q$ olmaqla A) şərtlərini ödəyirlər. Bu halda $L-\lambda I$ operatorunun Qrin funksiyası qurulmuşdur.

2.5-də (7) tənliyi və kəsilən çoxnöqtəli sərhəd şərtlərinin doğurduğu L operatorunun qoşmasının təsviri verilir.

Üçüncü fəsil requlyar sərhəd şərtlərinin doəurduğu kəsilən kvazidiferensial operatorun məxsusi və qoşma funksiyalar sisteminin $L_p(a,b)$ fəzalarında bazislik xassələrinin öyrənilməsinə həsr olunmuşdur. Bu fəsil beş yarımfəsildən ibarətdir.

3.1-də

$$y^{[n]} + \rho^n y = 0, \quad x \in (a,b), \tag{11}$$

tənliyinə baxılır; burada kvazitörəmələr (5) bərabərliyi ilə təyin olunur, $p_{kj}(x)$ əmsalları isə aşağıdakı şərtləri ödəyirlər:

$$Б)\ p_{kk} \in W_1^1(x_0, ..., x_l),$$

$$p_{kj} \in L_1(a,b), k \in 1:n, j \in 1:k-1; \ \prod_{k=1}^{n} p_{kk}(x) > 0, \quad x \in [a,b];$$

burada $a = x_0 < x_1 < ... < x_l = b$ və $W_1^1(x_0, ..., x_l)$ ilə elə funksiyalar çoxluğu işarə olunur ki, hər bir (x_{s-1}, x_s), $s \in 1:l$, intervalında mütləq kəsilməzdirlər. Kompleks $\rho-$müstəvisini aşağıdakı bərabərsizliklərlə təyin olunan S_γ sektorlarına bölək:

$$\frac{\gamma\pi}{n} \le \arg\rho \le \frac{(\gamma+1)\pi}{n}, \ \gamma \in 0:(2n-1).$$

$\omega_1, ..., \omega_n$ ilə -1 ədədinin $n-$ci dərəcədən köklərini işarə edək və tutaq ki, onlar elə nömrələniblər ki, ixtiyari $\rho \in S_\gamma$ üçün

$$\operatorname{Re}\rho\omega_1 \le \operatorname{Re}\rho\omega_2 \le ... \le \operatorname{Re}\rho\omega_n$$

bərabərsizlikləri ödənir. Kompleks $\rho-$müstəvisinin hər bir S_γ sektorunda və hər bir (x_{s-1}, x_s) intervalında (11) tənliyinin n xətti asılı olmayan $y_{s1}(x,\rho), y_{s2}(x,\rho), ..., y_{sn}(x,\rho)$ həlləri var ki, $\rho \in S_\gamma$ üzrə requlyardırlar və kifayət qədər böyük $|\rho|$ üçün aşağıdakı asimptotikaya malikdirlər:

$$y_{sk}^{[j]}(x,\rho) = (\rho\omega_k)^j V_{sj}(x) e^{\rho\omega_k\alpha_s'(x)}\left(1 + h_{skj}(x,\rho) + \mathrm{O}\left(\frac{1}{\rho}\right)\right),$$

$$s = \overline{1,l}\ , \ k = \overline{1,n}\ , \ j = \overline{0,n-1}\ ,$$

burada $V_{sj}(x), \alpha_s(x), h_{skj}(x)$ - tənliyin əmsalları ilə aşkar ifadə olunan müəyyən funksiyalardırlar.

***Tərif* 5.** *Aşağıdakı şəkildə olan sərhəd şərtlərinə nomallaşmış sərhəd şərtləri deyəcəyik:*

$$U_\nu(y) = \sum_{s=1}^{l} \sum_{j=0}^{\varkappa_\nu} \int_{x_{s-1}}^{x_s} y^{[j]}(t) d\sigma_{\nu sj}(t) = 0, \ \nu \in 1:nl, \tag{12}$$

burada $n-1 \geq \varkappa_1 \geq \varkappa_2 \geq \ldots \geq \varkappa_{nl} \geq 0$, $\varkappa_\nu > \varkappa_{\nu+2l}$, $\sigma_{\nu sj}(t)$ – *məhdud variasiyalı funksiyalardır, beləki* $\prod_{\nu=1}^{nl} \sum_{s=1}^{l} \left|\sigma_{\nu s \varkappa_\nu}(t)\right| \neq 0$.

Tutaq ki, $\alpha_{\nu sj}$, $\beta_{\nu sj}$ uyğun olaraq $\sigma_{\nu sj}(t)$, funksiyasının x_{s-1}, x_s nöqtələrindəki sıçrayışlarıdır. Həmçinin $a_{\nu k}^{s} = \alpha_{\nu s \varkappa_\nu} \omega_k^{\varkappa_\nu} V_{s \varkappa_\nu}(x_{s-1})$ və $b_{\nu k}^{s} = \beta_{\nu s \varkappa_\nu} \omega_k^{\varkappa_\nu} V_{s \varkappa_\nu}(x_s)$ işarə edək. Sərhəd şərtlərinin requlyarlığı anlayışını daxil etmək üçün n-in tək və cüt hallarına ayrılıqda baxaq. Tutaq ki, $n = 2\mu$. Onda η_1 və η_{-1} ədədlərini aşağıdakı kimi təyin edək:

$$\eta_1 = \det\left\|A_1^1 \ldots A_1^l\right\|, \ \eta_{-1} = \det\left\|A_{-1}^1 \ldots A_{-1}^l\right\|, \tag{13}$$

burada $A_1^s = \left(c_{ik}^{1,s}\right)_{i \in 1:nl; k \in 1:n}$, $c_{ik}^{1,s} = a_{ik}^{s}, i \in 1:nl, k \in \{1, \ldots, \mu-1, \mu+1\}$ olduqda və $c_{ik}^{1,s} = b_{ik}^{s}, i \in 1:nl, k \in \{\mu, \mu+2, \ldots, n\}$ olduqda; $A_{-1}^s = \left(c_{ik}^{-1,s}\right)_{i \in 1:nl; k \in 1:n}$, $c_{ik}^{-1,s} = a_{ik}^{s}$, $i \in 1:nl, k \in 1:\mu$ olduqda və $c_{ik}^{-1,s} = b_{ik}^{s}$ $i \in 1:nl, k \in (\mu+1):n$, olduqda; $s \in 1:l$.

$n = 2\mu - 1$ halında η_0 və η_1 ədədlərini aşağıdakı kimi təyin edək:

$$\eta_0 = \det\left\|A_0^1 \ldots A_0^l\right\|, \ \eta_1 = \det\left\|A_1^1 \ldots A_1^l\right\|, \tag{14}$$

burada $A_0^s = \left(c_{ik}^{0,s}\right)_{i \in 1:nl; k \in 1:n}$, $c_{ik}^{0,s} = a_{ik}^{s}$, $i \in 1:nl, k \in 1:\mu$ olduqda və $c_{ik}^{1,s} = b_{ik}^{s}, i \in 1:nl, k \in (\mu+1):n$ olduqda; $A_1^s = \left(c_{ik}^{1,s}\right)_{i \in 1:nl; k \in 1:n}$, $c_{ik}^{1,s} = a_{ik}^{s}, i \in 1:nl$, $k \in 1:(\mu-1)$ olduqda və $c_{ik}^{1,s} = b_{ik}^{s}, i \in 1:nl, k \in (\mu+1):n$ olduqda; $s \in 1:l$.

Tərif 6. *Əgər npu* $n = 2\mu$ *halında (13) bərabərliyi ilə təyin olunan* η_1 *və* η_{-1} *ədədləri,* $n = 2\mu - 1$ *halında isə (14) bərabərliyi ilə təyin olunan* η_0 *və* η_1 *ədədləri sıfırdan fərqli olarlarsa, onda (12) sərhəd şərtləri requlyar adlanır.*

$\Delta(\rho)$ ilə (11), (12) məsələsinin xarakteristik determinantını işarə edək, yəni

$$\Delta(\rho) = \det\left\| U_{vs}\left(y_{sk}\right)\right\|_{v\in 1:nl,\, s\in 1:l,\, k\in 1:n};$$

